

Kənan Hacı

# Hacı İsgəndər

**Roman**

**(əvvəli ötən sayımızda)**

## Müəllifdən

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən "Xalq Qəhrəmanı" ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. "Hacı İsgəndər" romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin "Azərbaycan dərvişləri və rövzəxanları" kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

*Şair kitabxananı yiyəsiz qoyub getmək istəmirdi. Kitabxana doğrudanmı yiyəsiz qalmışdı? Qoca harasa gedib, gəlib çıxmaq bilmirdi. Onunsa getdikcə hövsələsi daralırdı. Nə qədər ora-bura vurnuxsa da kor kitabxanaçını tapa bilmədi. Qoca yağlı əppək olub göyə çəkilmişdi, ya yerin dibinə girmişdi, buxarlanmışdı, nəydisə belə bir adam qeybə çəkilmişdi. Çöldən at ayaqlarının tappıltısı eşidilirdi. "Vəqti sakın kim, vəqt əzizdür, fövt olmasun". Sanki atların nallarından da bu cümlələr qopurdu. Bəlkə qoca bu sözlərlə bu boyda kitabxananı şairə etibar etmişdi?! Bəs bu şifrələri necə açsın? Anlayırdı ki, əlindəki kitabda heroqliflərin çevrilişi ilə yaranmış əks işarələr formaca dəyişdiyi kimi mənaları da dəyişdirir. Kitabın titul səhifəsindəki nizə inkar işarəsidir. Amma şair bu işarələrin labirintində azıb-qalmışdı, əvvəlcə gərək inkarın qrammatikasını öyrənəydi, bunsuz həmin işarələri anlamaq mümkünsüz görünürdü. O kor kitabxanaçı da öz qeybi ilə nəyisə inkar etmişdi, onun gedişi bir inkar aktı idi və onun gedişinin mənası həmən bu kitabdakı işarələrdə gizlənib. Şair sövq-təbii olaraq hiss edirdi ki, əlində tutduğu bu kitabda küfr deyilən bir şey yoxdur. Bu hissiyyatı ona təlqin edən hansı qüvvə idi? Səhifələrdən qəribə bir enerji axırdı və onun içini işıqlandırırdı, işığınsa mənbəyində küfr ola bilməzdi. Allahı öz varlığında dərk etməyən insan öz yaradılışının mahiyyətinə vara bilməz. Deyirlər, öz "mən"inin dərkinə can atmayan adamlar yenidən doğuluş və ölüm tsiklindən keçməli olacaqlar. Əlbəttə, bu islam fəlsəfəsinə zidd bir fikirdir, amma belə olsaydı, lap əla olardı. İnsan bir ömür boyu yaşayıb özünü dərk etmədən, dünyaya nə üçün gəldiyini bilmədən dünyadan necə köçə bilər?!*

Haşım bəy öz missiyasını dərk etmişdi və içində bir məmnunluq vardı. Mənfəətcil adam deyildi, tacirliklə ailəsini dolandırsa da qazancını həm də fəqir-füqəraya paylayırdı, ehtiyacı olan insanlara hərdaim əl tuturdu. Bir də Tanrı ona müstəsna bir səlahiyyət vermişdi; onu söz demək qüdrəti ilə şərəfləndirmişdi. Əlbəttə, belə bir ziqiymət kitab hər yoldan ötənin əlinə keçə bilməzdi. Şairlər peyğəmbərlərdən sonra Allahın sözünü insanlara çatdıranlardır. Deməli, bu kitabın şifrələri də Allahın izni ilə onun üçün açılacaqdı.

Şair kitabxanadan çıxanda duman qürub yerinə pərdə çəkmişdi. Bilmirdi sevinsin ya kədərlənsin. Qəfildən kitabxananın damından ağ bir göyərçin pırr eləyərək səmaya pərvazlandı. Şair diksindi, çevrilib arxaya baxdı, bədənindən xəfif bir gizilti keçdi. Bəlkə bu, qoca kitabxanaçının ruhu idi, bədənindən qopub gəldiyi yerə qayıtmışdı?! Kim bilir? Qocanın son sözlərini xatırladı: "Vəqti sakın kim, vəqt əzizdür, fövt olmasun".

Qocanın missiyası başa çatmışdı.

Haşım bəy dumanın içiylə dilində "Ərəfə" duası, qoltuğunda kitab qətiyyətli və inamlı addımlarla savaşın ortalarına doğru addımlayırdı. Kitabı təbərrük kimi əzizləyirdi. "Bədən üzvlərimdən məni faydalandır, göz və qulağımı mənə iki varis təyin et, zalımlara qarşı mənə yardımçı ol, onlardan intiqam almaq və onlara hakim olmağı mənə göstərməklə mənə göz aydınlığı ver!"

Bu döyüş də bir ərəfə idi. Kafirlər şəhərlərdə, kəndlərdə müsəlman qanı tökürdülər. Haşım bəy Hacı İsgəndərin kürəyini Xəzərə söykəmiş evinin qapısına çatıb özünü əsgərlərdən birinə təqdim edəndə az qala, ürəyi dayanacaqdı. Hacı İsgəndərin mülkü hərbi qərargaha çevrilmişdi. Qapıda silahlı keşikçilər dayanmışdı. Hər gələni içəri buraxmırdılar, çünki gələn adam təxribatçı ola bilərdi, hər yerdə ermənilər, rusun agentləri dolaşırdı. Şaumyanın güdükçüləri mütəmadi olaraq ona xəbərlər çatdırırdılar. Hacı İsgəndər əsgərə tapşırdı ki, bundan sonra şair gələn kimi sorğu-sualsız içəri buraxın. Əsgər əlini gicgahına aparıb "baş üstə" dedi. Haşım bəy qoltuğundakı kitabla birgə Hacı İsgəndərin evin küncündəki hücrəsinə daxil olanda ev yiyəsi bir qədər təəccübləndi.

***-Şair, xoş gəlmisən! Deyəsən, təzə şeirlər yazmısan. Amma indi bizim əsgərlərimizi döyüşə ruhlandıran şeirlər yazmaq lazımdır. Gül-bülbül iştiyaqında deyilik, Hacı!***

***Hacı İsgəndər bilirdi ki, Haşım bəy bu döyüş üçün pulundan-parasından keçib, adamları silahlandırmaq üçün ölçüyəgəlməz işlər görüb. Ona görə dediyi sözə peşman oldu. Haşım bəyin rəngi qaralmışdı, bıçaq vursaydın, qanı çıxmazdı.***

***-Hacı, deyəsən məni yaxşı tanımamısan. Mənim sözümlə əməlim birdir. Nə qədər canımda can var, bu millətin yolunda fəda edəcəyəm.***

***Hacı İsgəndər onu qucaqlayıb bağrına basdı və gözucu əlindəki kitaba baxdı.***

-Bağışla, sən Allah. Bilirəm ki, sən bizim dayağımızsan, mərdanə kişisən. Fikrim çox qarışıqdır, heç vaxt sənə belə söz deməzdim. Yaddan çıxar getsin. Yaxşı, bəs bu əlindəki kitab nədi belə? Məni də bu kitab çaşdırdı, ay şair.

Haşım bəy gülümsəyib Hacıya yüngülcə sataşmaq istədi:

-Heç demirsən bir əyləş, yol gəlmisən. Hacı, yaman dəyişmisən aaa.




Hacı İsgəndər doğrudan da əməlli-başlı dəyişmişdi, şir kimi qəfəsinə sığmırdı, fikri-xəyalı səngərlərdə dolaşırdı. Nağı bəy şad xəbərlə qayıtdıqdan az sonra daha bir xəbər də dabanqırma özünü yetirdi: Nuru Paşa öz qoşunları ilə Bakını xilas etməyə gəlir. İndi bütün hazırlıqlar ondan ötrü idi. Bir çox ortaq dəyərlər səbəbindən Anadolu ilə Azərbaycan türkləri arasındakı münasibət ortaq coğrafiyanın da təsiri ilə digər türk ellərinə görə daha da inkişaf etmişdi. Türklərin tarix səhnəsinə çıxdığı keçmiş zamanlardan günümüzə qədər davam edən bir həqiqət var: "Oğuz türklərinin dövləti güclü və qüvvətli olduğu dövrlərdə digər türk elləri ilə o biri müsəlman qövmləri rahatlıq, dinclik və ədalət içində yaşamışdılar". Bu gerçəyin fərqində olan azərbaycanlılar 1912-1913-cü illərdə Türkiyədə başlayan Balkan müharibəsində soydaşlarını yalnız qoymadılar. Azərbaycanda o vaxtkı partiya rəhbərləri bir bildiriş yayaraq dünyadakı bütün türkləri və müsəlmanları Osmanlıya yardım etməyə çağırdılar. Hacı Zeynəlabdin Tağıyev başda olmaqla, Azərbaycanın başqa önəmli zəngin adamları Balkan hərbində Osmanlı dövlətinə qızıl və pul göndərmişdilər. Azərbaycan türkləri Birinci Dünya Müharibəsində də Türkiyənin köməyinə çatmışdılar. Çanaqqala savaşlarına qatılan azərbaycanlı türklər digər qardaşları ilə birlikdə qəhrəmanlıqla vuruşmuş və şəhid olmuşdular. İndi isə Azərbaycanın yardıma ehtiyacı vardı, gavur caynaqları Qafqazı təhdid edirdi və Nuru Paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusu Bakını xilas etməyə gəlirdi.

Hacı İsgəndərin ruhu bədənində təlatümə gəlmişdi, damarlarında axan qanın şırıltısını qulaqlarında eşidirdi. Şeir zamanı deyildi, cəng meydanında hünər göstərmək məqamı idi. Amma Haşım bəy bu günlərin ictimai mənzərəsini sözlə nəzmə çəkmişdi. Əyləşməzdən öncə onun dilindən bu misralar səsləndi:

**Soran yox bu sözü aləmdə bu qan eyləyənlərdən,**
**Həvayi-nəfs üçün dünyanı viran eyləyənlərdən.**

**Neçindür xəlqə mən heç bilmirəm bihəd əziyyətlər,**
**Məgər heç qorxmayırlar ahu-əfqan eyləyənlərdən?**

**Nədir məqsəd süzə, ey əl açanlar xəlqə hər saət,**
**Nə istərsüz, deyin, çaki-giriban eyləyənlərdən?**

**Yetər kim zülm əliylə xanəbərduş eylədüz xəlqi,**
**Genə əl çəkmüsüz məskən biyaban eyləyənlərdən.**

**Əlamət qalmayıb diqqətlə hər kim baxsa tarixə,**
**Hanı asari, göstər, zülmə tüğyan eyləyənlərdən.**

...Gərək keçmişlər üçün rəhm etmüb intiqam almaq,
Əmansız, həqq yolunda canı qurban eyləyənlərdən.

Hacı İsgəndərin eyni açıldı, dostunun kürəyinə vurub "Əhsən!"- dedi. Biz bu zındıqlardan intiqamımızı alacağıq. Lap az qalıb, dostum.

***Haşım bəyin fikri kitabxanada qeybə çəkilmiş qocanın yanında idi, hələ də yuxu gördüyünü zənn edirdi. Bu yuxu heç bir iz buraxmamışdı. Bəs onda qoltuğundakı kitab nə idi?! Bu iz deyildi? Özü də gördükləri yuxu-zad deyildi. Hələ dəqiq bilmirdi ki, bədənində istiliyini hiss etdiyi kitab axtardığı kitabdır. Kitabdan kitaba köçən sirlər bu kitabın həndəvərində dolaşırdı. Kor kitabxanaçı izafi ömürdən sanki usanmışdı, bu qədim kitabxananın dərinliklərində min illik kitabələr kimi ovulub toza çevrilmişdi. İnsanın toz halı... Empedokl deyirdi ki, yolunu alovun işığıyla aydınlatmaq üçün insan necə od qalayarsa, qədim zamanların Atəşi də göz bəbəyinin yuvalarında eləcə saxlanılır. Görəsən, Şekspir korların dünyasını niyə qaranlıq kimi təsvir edib? Qoca kitabxanaçı həmişə buna etiraz edərdi. O, gözün görə bilmədiklərini görürdü, kitabxananın labirintlərində gözlərini əlləri əvəz edirdi.***

**(davamı gələn sayımızda)**